## SÜNİ İNTELLEKT VƏ FƏLSƏFƏ

**UOT 101.1**
**DOI:10.30546/sw.2023.2(41).11**

# FƏLSƏFƏ VƏ GƏLƏCƏYİN SURƏTLƏRİ

**İlham Məmmədzadə**
fəlsəfə elmləri doktoru, professor
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru, **Azərbaycan**
e-mail: ilham_mamedzade@mail.ru

**Samirə Dadaşova**
f.f.d., AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun böyük elmi işçisi, **Azərbaycan**
e-mail: dadashovas.phil@gmail.com
https://orcid.org 0000-0001-9100-3757

**Xülasə**: Məqalə müasir fəlsəfə, onun indiki zamanda gələcəyin obrazlarını ifadə edə bilmək xüsusiyyəti barəsində mühakimələri ehtiva edir. Yazıda fəlsəfə zaman konteksti ilə sıx əlaqədə nəzərdən keçirilir, bu isə, müəlliflərin fikrincə, fəlsəfənin elm, mədəniyyət və cəmiyyətə, o cümlədən gələcək haqqındakı təsəvvürlərimizə təsirinin əhəmiyyətini dərk etməyi asanlaşdırır. Müəlliflər belə nəticəyə gəlirlər ki, gələcəyin dolğun və aydın obrazlarını formalaşdırmaq üçün fəlsəfi tədqiqatları müxtəlif elm sahələrinə aid ideya və kateqoriyaların inteqrasiyası və sintezi vasitəsilə fənlərarası yanaşma əsasında aparmaq lazımdır.

**Açar sözlər**: gələcəyin obrazları, müasir fəlsəfə, şüur fəlsəfəsi, süni intellekt, fənlərarası tədqiqat

### Giriş

Fəlsəfənin mahiyyəti, icbari varlığı və aktuallığının səbəblərilə bağlı məsələlər xüsusunda düşüncələr uzun illərdir ki, bir çox filosofları dərindən narahat edir. Mahiyyət etibarilə onlar fəlsəfənin elm və cəmiyyətin inkişaf vektorunu dəyişdirməyə qadir müəyyənedici funksiyalarını saxlayıb-saxlamayacağı məsələsi ilə üzləşiblər. Məsələn, akademik V.Styopin fəlsəfəni bugünkü sivilizasiya və mədəniyyətin dünyagörüşü strukturunun yalnız əsası deyil, həm də yeni həyati məna və yeni dəyərlərin gerçəkləşdirilməsi üçün imkan yaradan fenomen kimi başa düşürdü. Onun fikrincə, fəlsəfənin inkişafı mədəniyyətə daim tənzimləyici düzəlişlər edərək, onun yeni tərəqqi yollarını formalaşdırır. Mədəniyyət və şüurda bu cür dəyişikliklər "zəkalarda inqilabla, insan həyatının mühüm proqramları kimi imkanları artıq tükənmiş, əvvəllər hakim mövqe tutan dünyagörüş təmayüllərinin tənqidi ilə" [8] labüd surətdə bağlı olan dönüş dövrlərində daha qəti tərzdə baş verir.

Müasir elmi və texnoloji transformasiyalar dövrü həm də varlığın fundamental əsaslarına yenidən baxılması insanın təbiəti və onun mümkün perspektivlərinin yenidən mənalandırılması zərurəti dərk olunan zaman sivilizasiyanın bulunduğu dönüş vəziyyəti kimi təfsir edilə bilər.Yenidən mənalandırma prosesində fəlsəfə elmi araşdırmalar üçün zəruri nəzəri bazanın yaradılmasında başlıca rol oynayır. Buna müvafiq olaraq fəlsəfənin perspektivləri hazırda tədqiqatlar üçün daim dəyişən platforma olan və müxtəlif texnologiya və fənlər arasında çarpazlaşma və əməkdaşlığı da ehtiva edən müasir elmə nə dərəcədə yenilik gətirə bilməsi ilə bağlıdır. Həqiqətən də, bu gün hər hansı ayrıca problem ən azı üç fənnin – fəlsəfə, etika və problemə müvafiq elmin – qovuşuğunda yerləşir, zira, qlobal məkanda mədəniyyətlərin hüdudları xüsusunda olduğu kimi, bütövlükdə elm inkişaf etdikcə elmi fənlərin zaman keçdikcə dəqiq çərçivəsi də yox olur [2]. Məsələn, bu mənada, süni intellekt (Sİ), mühəndislik və ya biologiya sahəsində tədqiqatları rəqəmsal fəlsəfə kimi nəzərdən keçirirlər [15, 18, 20]. Yeni tədqiqat metodları, yeni düşüncə üslubu və əski kateqoriya və konsepsiyalara yeni baxışın

formalaşması rəqəmsal informasiya texnologiyalarının öyrənilməsi vasitəsilə zəka və intellektin (idrakın), gerçəklik və biliyin mahiyyətinin, nəticə etibarilə, gələcəyin yeni obrazlarının formalaşmasına gətirib çıxaran araşdırmaların yenilənməsinə səbəb olub.

Gələcəyin obrazlarından danışarkən onu qeyd etmək lazımdır ki, həmin tərifi ilk dəfə verənlərdən biri danimarkalı futuroloq F.Polak olub. O, obrazların yaranmasını insan dərk və həll edilə bilən bir problem yaradarkən və bununla da biliklərini genişləndirən zaman təfəkkürdə sərhədin (indi və gələcək, gerçəklik və təxəyyül arasında həddin) çəkilməsi kimi başa düşürdü. F.Polakın fikrincə, “gələcək problemi qədər heç bir problem sərhəd çəkmək bacarığımıza bu qədər inadla meydan oxumur və heç bir problem intellektual üfüqlərimizə bu qədər güclü təzyiq göstərmir” [19, s. 4]. Lakin tarixin hər bir yeni mərhələsi, sosiomədəni və texnoloji dəyişikliklərin aramsız fərqli fəlsəfi paradiqmaları çərçivəsində gələcəyin aydın obrazlarının formalaşmasında xüsusilə çətinlik yaradır.

**Fəlsəfə - illüziya, yoxsa gerçəklikdir?**

Sual oxucuya kifayət qədər ciddi görünməyə bilər, amma gəlin ona zaman və təsir prizmasından yanaşmağa təşəbbüs edək. Aydındır ki, fəlsəfə, ilk növbədə, keçmiş (“nə olub”), indi (“nə var”) və gələcək (“nə olacaq”) haqqında düşüncələrdir, hərçənd onun daha çox tərifi vardır və onlar sübutlu, məntiqi, emosional və ya təsviri ola bilər. Bu, bir çox cəhətdən bütün düşüncələrin elmi olmaması yaxud yeni biliklər gətirməməsi ilə bağlıdır. V.Styopin üçün fəlsəfə mədəniyyətin özünüdərki, onun canlı ruhu (nəfsi) kimi, şüur və idrakın forması kimi, özü də daxil olmaqla, ruhun bütün formalarına təsir göstərən “fikirdə ifadə olunmuş dövr” kimi çıxış edir [9, s. 208] və deməli, onun insanın zahiri və batini təbiətinə təsirinin real olduğu kimi, o da realdır.

Digər tərəfdən, bu gün fəlsəfənin mahiyyəti, onun nisbətən aydın təriflərini verə bilən suallar üzərindəki bütün düşüncələr bizi labüd surətdə şüur, təbii və süni intellekt problemləri ilə üzləşdirir, çünki şüurlu subyektiv təcrübənin nə olduğu ilə bağlı suallara cavablar, gələcəyin obrazlarının dərk və ifadə edilməsində, o cümlədən dünyagörüşündə və insana, texnikaya və ətraf aləmə münasibətdə dəyişikliklərdə heç də az əhəmiyyət daşımır. Yəni, fəlsəfi mülahizə və tədqiqatlar elm və cəmiyyətin inkişafının zəmini olaraq bizə zamanla əlaqəmizi anlamağa, nəinki bugünkü gerçəkliyi dərk etməyə, həm də sabahkı dəyər və məqsədləri müəyyənləşdirərək görüşlərimizi gələcəyə yönəltməyə kömək edir. Üstəlik, sabahın obrazları məhz şüurda yaranır – onlar bizim subyektiv təcrübəmizdən, dünya duyumumuzdan və reallığı gerçəklikdən fərqləndirə bilən qavrayışımızdan təşəkkül tapır. Və bu mənada fəlsəfə illüzordur, xəyalidir və dar mənada, bu və ya digər fəlsəfi fikrin tam başa düşülməməsi, lazımınca dərk olunmaması və ya daha geniş mənada, müəyyən müddət ərzində sosiomədəni məkanın qəbul edilməməsi və ya inkarı kimi, bir çox səbəblərdən onun təsiri təhrif edilə və ya qeyri-qənaətbəxş ola bilər. Obrazların birmənalı olmaması və külliliyi obyektiv varlığın onun subyektiv dərkində təhrif olunduğuna bilavasitə həqiqi sübutdur.

Məsələn, A.Zaslavskiyə görə, reallığı (indini) eyni vaxtda mövcud olan keyfiyyətlərin çoxluğu kimi təsəvvür edərkən, biz o an ziddiyyətlərin tələsinə düşürük, zira bu cür reallıq ya artıq, ya da hələ mövcud deyil: “indinin mahiyyətini anlamamaq zamanı lazımınca dərk etməməyimizdə bəlkə də ən üzücü məqamdır. Və bu anlamamanın səbəbi ondadır ki, biz bütün mümkün, təsəvvür edilə bilinən aləmi indinin bir anına sığışdırmağa cəhd edirik” [3]. Beləliklə, şüur zaman və qavrayışla (perseptiv) bağlı təriflərə tabe olduğundan gerçəkliyi adekvat təhlil etmək iqtidarında deyil və deməli, illüziya reallığa xas olan atributdan başqa bir şey deyildir. F.Polak üçün dünyanın özü illüziyadır və əsas gerçəklik insandan gizlidir. İnsan dünyanı seçdiyi hər hansı obraza müvafiq olaraq islah edə və yenidən qura bilər [19, s. 3]. Fəqət obrazı translyasiya etmək mümkün olana qədər o, fəlsəfi zəka tərəfindən qavranmalı, zehnə gətirilməli və dərk olunmalıdır.

Qeyd edilməlidir ki, fəlsəfənin özünün və onun evristik və proqnozlaşdırıcı funksiyalarının dərk olunmasına təfəkkür, elm fəlsəfəsi, insan təbiəti və şüurunun mahiyyəti haqqında zəngin fəlsəfi ədəbiyyata malik fəlsəfə tarixi bilavasitə təsir göstərir. Məhz fəlsəfə tarixi düşüncənin inkişafının təhlili vasitəsilə bizə müəyyən müddət ərzində gələcəyin obrazlarının necə təşəkkül tapdığını, subyektiv təcrübəmizdə keçmiş, indi və gələcəyin necə əlaqələndirilmiş olduğunu, şüur haqqında biliklərin necə dəyişdiyini, fəlsəfənin cəmiyyət, din, əxlaq və siyasətə necə təsir göstərdiyini, öz

dövründə radikal və ya utopik görünən ideyaların cəmiyyət və elm inkişaf etdikcə yeni məna və mahiyyət kəsb etdiyini və s. tədqiq etməyə imkan verir. Lakin aydındır ki, bununla məhdudlaşmaq olmaz və fəlsəfə tarixini gələcəyə istiqamətləndirmək üçün fəlsəfənin özünü dövrün yeni bilik və çağırışları kontekstində yenidən nəzərdən keçirmək, yenidən mənalandırmaq, onda elm və mədəniyyətdə transformasiyalara, dəyişikliklərə səbəb olan cəhətləri aşkar etmək lazımdır. Bu gün fəlsəfi tədqiqatları yalnız fəlsəfə tarixi sahəsində aparmaqla kifayətlənmək olmaz, zira dəqiq dissiplinar təyinatının olması səbəbindən bu fənn araşdırmalarda müəyyən məhdudiyyətlər nəzərdə tutur. Fəlsəfə tarixi özlüyündə nə qədər dəyərli olsa da, o, müasir fəlsəfəyə verdiyi ideya töhfəsinə görə əhəmiyyət kəsb edir. Fəqət müxtəlif əsrlərin filosoflarının, məsələn, şüur problemini necə nəzərdən keçirdiklərinin təfsiri zəruri surətdə şüur haqqında müasir elmin dərkindən və bu dərketmənin şüur fəlsəfəsinin inkişafına və bütün fəlsəfi və daha geniş elmi təfəkkürün təkamülünə necə təsir göstərə bildiyinin mənalandırılmasından bilavasitə əvvəl təqdim olunmalıdır [5]. V.Styopinə görə, “dünyanın fəlsəfi dərkinin evristik və proqnozlaşdırıcı komponentlərinin inkişafı elmin inkişafı üçün zəruri şərtdir. O, elmin ideal obyektlərlə bu və ya digər tarixi dövrün praktikasında hələ mənimsənilməmiş predmet strukturlarının başa düşülməsini təmin edən nəzəri əməliyyat aparılması sahəsində hərəkəti üçün ilkin şərt kimi çıxış edir” [10]. Əlbəttə, fəlsəfənin proqnozlaşdırıcı funksiyaları heç də hər cəmiyyətdə deyil, yalnız fəlsəfənin ictimai şüurda öz yerini başqa elmlərə vermədiyi toplumda mümkün olması üçün qəbul edilə bilər.

Bələliklə, müəyyən dövrdə “var olaraq” fəlsəfə elmi təfəkkürün inkişafına təsir göstərməyə, elmdə əsas təmayülləri müəyyənləşdirməyə və onun prioritetlərini dəyişdirməyə qadirdir və məhz bu, onun aktuallığını şərtləndirir. Fəlsəfi fikir sanki zamandan “çıxaraq” mövcud tarixi dövrdən kənarda inkişaf və təkamül etdiyi dövrlərdə isə mütəfəkkirlər onun təsirinin zəiflədiyini qeyd edirlər.

Qərb fəlsəfəsində bu, XX əsrin ortalarında baş verib (J.Delöz, J. Derrida, M.Fuko və b.), postsovet məkanında isə çox güman ki, XX əsrin sonundan, sovet marksizminin süqutu ilə başlamışdır. Fikrimizcə, fəlsəfənin “burada və indi” hansı rol oynadığından asılı olmayaraq, fəlsəfi tədqiqatların lazımi dərəcədə qiymətləndirilməməsi hərtərəfli biliklərin, mövcud nəticə və ideyaların tam diapazonunun işə salınması və istifadə edilməsində çoxsaylı maneələrə səbəb ola bilər. Həmçinin müasir tədqiqatlarda ənənəvi (ciddi dissiplinar) fəlsəfi refleksiyanın təmsil olunması da kifayət etmir, çünki bu gün texnologiyaların sürətli inkişafı səbəbindən fəlsəfə daha geniş və çox vəzifəlidir, zira o, bir çox fənlərin, o cümlədən koqnitiv elmlərin problemlərinin həllinə yönəlib. Bir tərəfdən mədəniyyət, cəmiyyət və elmin, digər tərəfdən isə keçmiş əsrlərin etik konsepsiya və fəlsəfi cərəyanlarının qarşılıqlı təsirinin dərk olunması hansı təfsirlərin bu gün və sabah fəlsəfənin müəyyənləşdirilməsinə səbəb olduğu və olacağına, hansı təmayüllərin həm müasir elmdə, həm də gələcəkdə müəyyən sosiomədəni mühitdə üstünlük təşkil edə biləcəyinə aydınlıq gətirməyə kömək edir.

**Müasir fəlsəfənin intellektual mühiti**

Hər bir ideya xas olduğu dövrün ab-havasına, yəni intellektual mühitinə əsaslanır. Məhz bir tarixi dövr kimi zaman öz həllini tələb edən müəyyən problemləri irəli sürür. İnformasiya texnologiyalarının inkişafı ilə əlaqədar olaraq fəlsəfənin prioritet təşkil edən problemləri sırasına başlanğıcını “kartezian dualizmi”ndən götürən təbii və süni intellekt şüur və özünüdərk haqqında bilik, elmi etika və onun Sİ-nin tətbiqinin bütün mərhələlərində nəticələrinin dəyərləndirilməsində rolu kimi məsələlər yer alır.

Elmlərin, elmi fənlərin qovuşuğunda olan problemlər xüsusi mənalandırma tələb edir, zira müasir fəlsəfi tədqiqatda, o cümlədən şüur və Sİ fəlsəfəsində riyaziyyat və fizika böyük rol oynayır. Bu elmi sahələrin fəlsəfi biliklərdə daşıdığı əhəmiyyət hələ Q.Qaliley, R.Dekart, İ.Nyuton və başqaları tərəfindən müəyyən edilsə də, informasiya texnologiyalarının geniş tətbiqi ilə əlaqədar həmin sahələrin fəlsəfənin predmetinin müəyyənləşdirilməsinə təsiri sürətlə artmağa başladı. Riyazi anlayış və alqoritmlərin köməyilə süni neyron şəbəkələrin modelləşdirilməsi metodları, informasiya nəzəriyyəsi, kvant fizikası müasir alimlər tərəfindən “fəlsəfənin və o cümlədən etikanın mərkəzi mövzusu” kimi müəyyən edilən şüurun dərki sahəsində ən mühüm tərkib hissələrdir (N. Levi). Fəqət şüurun riyaziyyat və fizikanın köməyi ilə təhlili, o cümlədən onun müəyyən aspektlərinin kompyuter

modelləşdirilməsi, beynin fikir və ya emosiyaları necə yarada bildiyini daha müfəssəl surətdə təhlil etməyə imkan versə də, daha ümumi suallar, məsələn, şüur nədir və o, insanın beyninə və davranışına necə təsir göstərir və ya gələcəyin insanı necə olacaq kimi suallar hələ də açıq qalır və çox vaxt ziddiyyətlidir.

Sİ və onun elmi və ictimai həyata tətbiqi ona dəlalət edir ki, şüur və beynin fəaliyyətinin mahiyyətini anlamaq üçün istifadə etdiyimiz bu biliklər və onlara əsaslanan texnoloji istiarələr bizə tam bir mənzərə təqdim etmir, hərçənd bu, heç də o demək deyil ki, elm onlarsız inkişaf edə bilər və həmin sahələrdən olan biliklərdən bu suallara cavab axtarışlarında istifadə etmək olmaz. Fizik L.Brillüenin fikrincə, bu və ya digər riyazi nəzəriyyə hər hansı sahə üçün tam məhdudiyyətsiz yararlı olan ciddi strukturdur, lakin bu nəzəriyyə fiziki model kimi istifadə olunduqda, o hələ tətbiq olunmamış səhvlərin buraxılmasını mümkün edir [1, s. 73]. Elə həmin əsərdəcə L.Brillüen belə bir qənaətə gəlir ki, “elm iman deyil, o, hansısa ali tanrı tərəfindən insana vəhy olunmur. Elm insan şüurunun məhsuludur və özlüyündə həmişə diskussiya və mümkün təftişə açıqdır” [1, s. 9], eynilə dövrü keçmiş obraz və metaforaları rədd etmək və köhnələrin yerinə yenilərini yaratmaq olar. Məsələn, bəzi alimlər qeyd edirlər ki, beyin haqqında elm və texnologiyalar arasında həqiqətən zəruri olan qarşılıqlı əlaqəyə baxmayaraq, “beyin bir kompyuterdir” kimi istiarələr nevrologiyada artıq işləmir və beyin və şüur xüsusunda  tədqiqatlar Sİ sahəsində araşdırmalarla əvəz oluna bilməz [12, 14, 16]. Şübhəsiz, şüur haqqında biliklərin artırılması prosesində aparıcı rolu kompyuter texnologiyaları oynayır, lakin informasiyanın çoxluğu idrak üçün onun çatışmazlığı qədər çətinlik yaradır. Koqnitivist filosofların özlərinin – D. Dennet, D. Çalmers və başqalarının [11, 13] – təsdiq etdikləri kimi, alimlərin şüurun mahiyyətinin izahındakı uğursuzluğu, beyin və şüur sahəsində araşdırmalarda riyazi alqoritm və fiziki düsturların uğurlara gətirib çıxara biləcəyinə dair şübhələrin yaranmasına səbəb olur. Fəqət tədqiqatçı onlarsız qabaqcadan xəbər vermək və proqnozlaşdırmağın çətin olduğu qanunauyğunluqları (patternləri) fəal surətdə təfsir edir və axtarır. Aydındır ki, proqnozlaşdırma prosesindən əvvəl qanunauyğunluqlar müəyyən edilir. Bu çoxvəzifəli metodoloji əlaqələrdə məntiq, assosiasiya, analogiya və homologiyalar öz rolunu oynayır.

Bu kontekstdə fəlsəfə, ilk növbədə, müasir metodologiyada səlis-qeyri-səlis məntiqlə həqiqətin hansı rol oynadığı, epistemologiya ilə insan haqqında biliklərin necə artması, bu biliklərin hər hansı digər biliyin əsasında necə yer aldığı və insan haqqında biliklərin artırılmasında Sİ-dən istifadə etmək yolları xüsusunda mövqeyini müəyyənləşdirməlidir. Düşünürük ki, şüur problemi cəmiyyət və insanın inqilabi-təkamüli inkişafının əsasında yer tutub və indi şüurun dərinliklərinin və insanın dərk olunmasındakı rolunun anlanması onun bundan sonra necə inkişaf edəcəyini, fəlsəfənin hansı yeni obraz və/və ya istiarələr təklif edə biləcəyini başa düşməyə kömək edəcəkdir.

Lakin öncə cari məsələlərin həllində sıçrayışa nail olmaq, bəlkə də, koqnitiv elmlərin mövcud olduğu dövrdə elmin inkişafını müəyyən etməyə qadir metafora yaratmaq üçün müasir filosofun hansı biliklərə yiyələnməli olduğunu anlamaq gərəkdir. Bizə burada iki müddəanın mümkün olduğu aydındır: birincisi - beyin şüur və şüuraltının (təhtəlşüurun) bütün aspektləri, insanın mahiyyəti dərk olunmadan başa düşülə bilməz və əksinə; ikincisi - kompyuter modelləşdirməsi və Sİ insanın yalnız hesablamalar aparmaq üçün istifadə etdiyi bir mexanizm olsa belə, rəqəmsal texnologiyalar eyni zamanda həm insan, beyin və şüurun, həm də ətraf mühitin bir hissəsinə çevrilir. Bu müddəalar zəruri surətdə etika, iradə azadlığı və determinizmin təhlilini və deməli, təkcə koqnitiv tədqiqatlara deyil, həm də fəlsəfəyə müraciəti nəzərdə tutur. Məsələn, fəlsəfə professoru T.Metsinger şüurun əxlaqi aspektləri və onun təbiəti, o cümlədən mürəkkəb süni intellektual sistemlər məsələsi ilə əlaqədar bilik sahəsi kimi, “şüur etikası”nın tətbiqini zəruri sayaraq [17], şüurun öyrənilməsində etik tədqiqatların əsas rol oynadiğını etiraf edir. Şüur etikası, öz növbəsində, şüurun təbiət və sosial elmlərin nəticələri əsasında fundamental tədqiqini nəzərdə tutur.

Etika, fəlsəfə, neyrobiologiya və neyrofiziologiya kimi müxtəlif sahələrin mütəxəssisləri ilə ciddi əməkdaşlıq ilk dəfə filosof C.Sörlün əsərlərində əksini tapmışdır. O, şüur problemi ilə bağlı mövqeyini anladaraq iddia edirdi ki, “beynin şüur problemini tədqiq etmədən öyrənilməsi genetikanın irsiyyət mexanizmini öyrənmədən araşdırılmasına bənzəyir” [7]. Yəni, şüur təkcə beynin fəaliyyəti, orqanizmin idarə olunması üçün hərəkətverici qüvvə vasitəsi deyil, burada əxlaq və iradə azadlığı, sosial və mədəni aspektlər və s. fenomenlərin də yeri vardır. Fəlsəfənin bütün məsələlərindən

biologiya və neyrofiziologiyasız, beynin təbiəti, mahiyyəti (nə olduğu), onun neyronlardan, hüceyrələrdən, şəbəkələrdəki əlaqələrdən ibarət olduğu, neyron fəaliyyətinin mürəkkəb dinamik patternlərini də ehtiva etdiyi, informasiyanı xaricdən aldığı, onu emal etdiyi və fiziki və/və ya mental proseslərlə şərtləndirilmiş fəaliyyət göstərdiyi barədə biliklərə yiyələnmədən baş çıxarmaq olmaz.

Yuxarıda ifadə olunan problemlər və hər şeydən əvvəl, fəlsəfənin, o cümlədən şüur fəlsəfəsinin və gələcəyin obrazları arasında əlaqələrin perspektivləri barəsində düşüncələr bizdən fənlərarası tədqiqatın zəruriliyi ilə elmlərin dissiplinar bölgüsündə yeni biliyin tükənmişliyi arasında sərhədi görə bilmə bacarığını tələb edir. Artıq indi aydındır ki, fənlərarası əsaslar olmadan şüur haqqında biliklər natamam fraqmentlər, ayrı-ayrı izahatlardan hazırlanmış “qurama” yaxud mozaika kimi olacaq. Bununla belə, insanın təbiəti, onun şüurunun əxlaqi hüdudları, cisim (bədən) və zəka (fiziki və mental) arasında əlaqələr, həqiqi və dərk edilən dünya (obyektiv aləm və subyektiv təcrübə) arasında münasibətlər, şüurun dünyanı anlamağımızı necə formalaşdırdığı, dərk edən (şüurlu) olmağın mahiyyəti və nəhayət, insan və onun şüurunun necə dəyişəcəyi barədə düşüncələr fəlsəfənin məqsədi və eyni zamanda, gələcək elmi tədqiqatlar və kəşflərin əsasını təşkil edir.Yuxarıda deyilənlərə müvafiq olaraq, belə bir qənaətə gəlmək olar ki, hər hansı bir fəlsəfi konsepsiya bilavasitə və ya bilvasitə gələcəyin obrazlarının yaradılmasında iştirak edir.

**Nəticə**

Beləliklə, fəlsəfə gələcəyin obrazlarını tarix və müasirlik (indi), gerçəklik və illüziya, azadlıq və determinizm arasında əlaqə və qanunauyğunluqlar axtarışında görür: burada aşkar edilmiş hər bir qanunauyğunluq gələcək cəmiyyətin mədəni və intellektual landşaftının (mənzərəsinin) qurulması üçün vasitə olan yeni ideya yaradır. İdeyalar, prinsipcə və əsasən, onlar gələcəyə aid olduqda, hadisələrin zaman üzrə hərəkəti və bütövlükdə, mədəniyyət və cəmiyyətin inkişafı üçün obyektiv şərtdir. Gələcəyin obrazları barədə düşünərkən fərd və mədəniyyət arasında qarşılıqlı əlaqələri, onların qarşılıqlı surətdə asılılığı və bir-birinə təsirinin əhəmiyyətini anlamaq lazımdır: bir tərəfdən, insan mədəniyyətdə qorunub saxlanılan standartlar, adət-ənənələr və bilikləri dərk edir və mənimsəyir və bu da onun davranış və fəaliyyətinə təsir göstərir; digər tərəfdən, insan özü fəal mədəniyyət yaradıcısıdır; o, cəmiyyətin qarşısında duran vəzifələri həll edir və öz təcrübəsini və mədəniyyətdən aldığı bilikləri yeni standartlar, adət-ənənələr və biliklər yaratmaq üçün istifadə edərək mədəniyyəti transformasiya edir və bununla da yeni fenomenlər və “mədəniyyət vəziyyətləri" doğurur [9]. Bu yeni “vəziyyətləri” mənalandırmaq, onların hansı şəraitdə arzuolunan nəticələr verə biləcəyini dərk etmək fəlsəfənin vəzifəsidir. Bununla bərabər, keçmiş əsrlərin fəlsəfəsindən fərqli olaraq, müasir fəlsəfə keçmiş, indi və gələcək barədə düşüncələrdə doğan fikirlərin, yürüdülən mühakimələrin və alınan nəticələrin sübutluluğunu, inandırıcılığını, məntiqiliyini və yoxlanılmasını özündə ehtiva edir ki [4], bununla da digər elmlərin inkişafına imkan yaradır, obraz və metaforaların bu və ya digər elm və elmi biliklərdə oynadığı rolu dərk etməyə kömək göstərir.

Deməli, gələcəyin obrazlarının təhlili, ilk növbədə, elmin özünün taleyi, sabahkı günü məsələsinə toxunur. Aydındır ki, texnologiyaların inkişafı və həyatın praktik olaraq bütün sahələrinin rəqəmsallaşması alimin özünün şüurunun, tədqiqat metodlarının dəyişilməsinə və bunun nəticəsi kimi, dünya nizamını dərk etməyimizi genişləndirə biləcək yeni nəzəriyyə və konsepsiyaların inkişafına səbəb olur [6]. Bu yanaşmanın məğzi ümumi qanunauyğunluq və əlaqələrin müəyyənləşdirilməsi, fərqli elm sahələrinə aid ideya, məfhum və konsepsiyaların inteqrasiya və sintezi vasitəsilə elmi təcrübənin daim yenilənməsindən ibarətdir. Beləliklə, alimlərə meydan oxuyan problemlərin fənlərarası metodla tədqiq edilməsi elmi ictimaiyyəti zənginləşdirməklə yanaşı, nəinki məsələlərin müxtəlif yöndən müfəssəl surətdə araşdırılmasına imkan verir, həm də gələcək elmi tədqiqatların potensial istiqamətlərini və gələcəyin mümkün ssenarilərini formalaşdırmaq üçün daha dəqiq və kompleks nəticələrin müəyyənləşdirilməsinə kömək edir.

**İstifadə olunmuş ədəbiyyat**

1. Бриллюэн Л. Научная неопределенность и информация / пер. И.Кузнецова. Изд. 2-ое. М.: КомКнига, 206. 207 с.

2. Дадашова С. О философии сегодня // AlmaMater, Вестник Высшей школы, 2022, №7. С. 15-21.

3. Заславский А. Время, сознание, пространство, 2006 // URL: http://www.chronos-.msu.ru/old/RREPORTS/zaslavsky_vremya.pdf.

4. Мамедзаде И. О некоторых проблемах философии науки и искусственного интеллекта // Философия в период пандемии и нечеткая логика Л. Заде. Баку: ИФ НАНА, 2021. С. 55-69.

5. Мамедзаде И., Дадашова С. Философия сознания и ИИ: некоторые проблемы их взаимодействия / Проблемы восточной философии, ИФС НАНА, 2023, № 29, с 5-10.

6. Мамедзаде И., Дадашова С. О философии искусственного интеллекта и научной революции // Вопросы философии. 2023. Т. № 4. С. 206–215.

7. Сёрль Дж. Проблема сознания / пер. А. Шухова. М., 2003 // Электронная публикация: Центр гуманитарных технологий. 15.07.2014. URL: https://gtmarket.ru/library/articles/6849

8. Стёпин В. Философия и образы будущего // Вопросы философии, ИФ РАН, 1994, №6. С. 10-21.

9. Стёпин В. Цивилизация и культура. СПб.: СПбГУП, 2011, 408 с.

10. Стёпин В. Философия науки. Общие проблемы. М., 2006 // Электронная публикация: Центр гуманитарных технологий. 18.03.2012. URL: https://gtmarket.ru/library/basis/5321/5326

11. Хофштадтер Д., Деннет Д. Глаз разума, Самара: Бахрар-М.,2003. 432 с.

12. Buzsaki G. The Brain from Inside Out, N.Y.: Oxford University Press, 2019.

13. Chalmers D. Facing up to the problem of consciousness. Journal of Consciousness Studies, 1995, 2 (3). P. 200–219.

14. Cobb M. The Idea of the Brain: The past and future of neuroscience, N.Y., 2020.

15. Fredkin E. An Introduction to Digital Philosophy / International Journal of Theoretical Physics, 2003, Vol. 42, No. 2.

16. Frégnac Y. Big data and the industrialization of neuroscience: A safe roadmap for understanding the brain? / Science 358 (2017), p. 470–477.

17. Metzinger T. Being No One. The Self-Model Theory of Subjectivity. Cambridge, MA: MIT Press, 2003.

18. Pence Ch., Ramsey G. How to Do Digital Philosophy of Science / Philosophy of Science, 2018, Vol. 85, Issue 5, pp. 930-941.

19. Polak F. The image of the future / translated by Boulding E. Amsterdam: Elsevier, 1973, 319 p. (p.4).

20. Sadiku M., Tembely M. & Musa S. Digital Philosophy / International Journals of Advanced Research in Computer Science and Software Engineeringб 2018, pp. 26-28.

## ФИЛОСОФИЯ И ОБРАЗЫ БУДУЩЕГО

**Ильхам Мамедзаде**
**Самира Дадашова**

**Резюме:** Данная статья есть рассуждение о современной философии, о ее способности сформулировать образы будущего в настоящем. В статье, философия рассматривается в тесной связи с контекстом времени, что по мнению авторов, облегчает понимание значимости влияния философии на науку, культуру и общество, в частности на наши представления о будущем. Авторы заключают, что для формирования полноценных и ясных образов будущего, философское исследование необходимо строить на основе междисциплинарного подхода через интеграцию и синтез идей и категорий из различных научных областей.

**Ключевые слова:** образы будущего, современная философия, философия сознания, искусственный интеллект, междисциплинарное исследование

# PHILOSOPHY AND THE IMAGES OF THE FUTURE

**Ilham Mammadzadeh**
**Samira Dadasheva**

**Abstract.** The article contains judgments about modern philosophy, its ability to express images of the future in the present. In the article, philosophy is considered in close connection with the context of time, which, according to the authors, makes it easier to understand the importance of the influence of philosophy on science, culture and society, including our ideas about the future. The authors conclude that in order to form complete and clear images of the future, philosophical research should be conducted on the basis of an interdisciplinary approach through the integration and synthesis of ideas and categories from different fields of science.

**Keywords:** images of the future, modern philosophy, philosophy of consciousness, artificial intelligence, interdisciplinary research

**Rəyçi: f.e.d.,dos. Dilarə Müslümzadə**